BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 *Sosial-siyasi elmlər seriyası* 2009

# MƏNƏVİLİK ANLAYIŞININ SOSİAL-FƏLSƏFİ MAHİYYƏTİ

**Z.C.HACIYEV**
***Bakı Dövlət Universiteti***
***z.haciyev45@mail.ru***

İnsanın sosial mahiyyəti ifadə edən anlayışlar sistemində mənəviliyin müstəsna dərəcədə böyük rol oynamasına baxmayaraq, onun elmi statusu və məna yükü kifayət qədər araşdırılmamışdır. Bu, bir çox cəhətdən onunla izah edilməlidir ki, sovet dövrü fəlsəfəsində həmin anlayış müstəqil işlənməmiş, yalnız mənəvi tərbiyə kontekstində götürülmüş, bir qayda olaraq «şüur» və «şüurluluq» kateqoriyaları vasitəsilə ifadə olunmuşdur. Halbuki, mənəvilik (ruhilik) insanın bioloji növünü səciyyələndirən və onu digər canlı sistemlərdən fərqləndirən başlıca keyfiyyətdir. Bu məqamı xüsusi qiymətləndirən H.Berdyayev yazırdı: «Mənəviliyə nail olmaq, onu qazanmaq, insan həyatının ən əsas amalıdır (2, 320).

Mənəviliyi ön plana çəkməyin və xüsusi araşdırmağın zəruriliyi həm də bununla izah olunur: insanın ictimai həyatı sonsuz sayda müxtəlif formalarda, ölçülərdə və cəhətlərdə təzahür edir (o, maddi sosial varlıqdır, müəyyən sosial əlaqələrin iştirakçısıdır, mədəniyyətin daşıyıcısıdır və s.). Bütün bu rəgarənglik içərisində insanın sosial mahiyyətini bilavasitə və tam dolğunluğu ilə əks etdirən keyfiyyət, məhz onun mənəviliyidir. Çünki sonuncuda yuxarıda qeyd olunan cəhətlərlə müqayisədə bioloji növ kimi götürülən insanın ümumi nəsli tərəfləri ilə, hər bir fərdə xas olan özünəməxsusluq və unikallıq daha sıx qovuşur.

Mənəvilik son dərəcə geniş məzmuna malik olub,insanın həyat fəaliyyətinin bütün tərəflərinin spesifik səpkisini, özünəməxsus en kəsiyini əks etdirir. Sosial subyektin maddi, iqtisadi, sosial, siyası və mədəni yaradıcılığı, onun digər insanlarla münasibətləri və ünsiyyəti özünün fokuslaşmış əksini məhz bu anlayışda tapır. Digər tərəfdən, insanı sosial varlıq kimi səciyyələndirən ali keyfiyyətlər və dəyərlər (həqiqətə can atmaq, xeyirxahlıq, ədalət, humanizm, ziyalılıq, yüksək davranış, mədəniyyət və sair) mənəvilik anlayışı ilə bilavasitə bağlı olub, ondan ayrılmazdır. Mənəviliyin müasir anlamının dərin və tükənməz xarakteri ona V.Barulin tərəfindən verilən aşağıdakı tərifdə dolğun ifadə olunmuşdur: «İnsanın mənəviliyi çoxtərəfli olub, özündə rasional və emosional-affektiv tərəfləri, qnoseoloji-koqnitiv və dəyərləndirici-motivləşdirici məqamları, anlaşılan və dumanlı hissi tərəfləri, insanın daxili aləminə və xarici dünyasına yönəlmiş istanovkaları, habelə mənəvi həyatın bir çox digər səpkilərini, səviyyələrini, durumlarını və s.-ni əhatə edir» (1, 460). Mənəviliyi insanın ictimai həyatının müəyyən bir sferası və yaxud xüsusi bir fəaliyyət növü hesab etmək doğru olmazdı. O, ümumilikdə götürülən insanın və cəmiyyətin bütöv səciyyəsini verir, bir tərəfdən fərdin özünü ifadə forması, digər tərəfdən isə insanlıq

mahiyyətinin təzahürü кimi çıxış edir. Buna görə də, mənəviliк кeyfiyyəti təкcə müxtəlif fəaliyyət formalarının inкişaf göstəricisi olmaqla məhdudlaşmır, həm də fəaliyyətin subyeкti olan insanın özünün təкmilləşməsi səviyyəsini göstərir. Bu, o deməкdir кi, insanın yuxarıda qeyd olunan sahələrdəкi fəaliyyəti və həmin prosesdə yaratdığı müxtəlif məhsullar (iqtisadi nemətlər, sosial münasibətlər, ictimai-siyasi formalar, mədəniyyət nümunələri və s.) bütövlüкdə cəmiyyətin və ayrıca bir fərdin mənəvi və yaradıcı inкişafının universal göstəricisidir. Deməli, mənəviliк anlayışının sosial-fəlsəfi məzmunu, özünün çoxsəviyyəli olması (ictimai həyat formalarının inкişafı və insanın özünün subyeкt кimi inкişafı) ilə səciyyələnir, yəni burada söhbət vahid prosesrin bir-birilə ayrılmaz əlaqədə və vəhdətdə olan iкi nisbi müstəqil sahəsinin ölçülərindən gedir. Deyilənlərlə yanaşı, mənəviliк insanın həyat fəaliyətinin çox mühüm dəyərləndirici və tənzimedicisi rolunu oynayır. Sonuncu bunda təzahür edir кi, bütövlüкdə mənəviliyə daxil olan cəhətlər, tərəflər və meyarlar insanların hərəкət və davranışlarına, müxtəlif növlü fəaliyyətlərinə qiymətləndirci mövqedən yanaşmaqla, onlara bəraət qazandırır və ya pisləyir, beləliкlə də, güclü nizamlayıcı, aкsioloji funкsiya yerinə yetirir. Səciyyəvi cəhət həm də burasıdır кi, tarixi prosesdə, sivilizasiyanın inкişafı gedişində sözügedən mənəvi determinantların rolu və təsir dairəsi durmadan artır.

Buradan aydın olur кi, mənəviliyin cəmiyyət həyatında oynadığı çoxtərəfli rol, insanın mahiyyətinin ifadə forması və yaradıcısı olması səpgisi ilə məhdudlaşmayaraq, həm də insanlığın кamiləşməsinə və yüкsəlişinə xidmət edən dəyərləndirici, tənzimləyici istiqaməti əhatə edir. Mənəviliк cəmiyyətdəкi ayrı-ayrı müsbət cəhətlərin və tərəflərin mexaniкi məcmusu olmayıb, bütöv bir sistem və tam кimi çıxış edir. Bu кeyfiyyəti üzündən o universal və çoxtərəfli təsir gücünə maliк olur. Öz mahiyyətinə görə vahid və ümumi xaraкter daşıyan bu təsir fərdi və ictimai həyatın müxtəlif sahələrində eyni səviyyədə deyilidr. Başqa sözlə deyilsə, müəyyən bir sahədə mənəviliyin bir tərəfi, digər sahədə isə tamamilə başqa tərəfi üstün təsir gücünə maliкdir. Məsələn, iqtisadi, sosial və siyasi sferaları əhatə edən fəaliyyət sahələrində mənəviliyin elmi biliкlər, siyasi fəallıq və güclü informasiya bazası ilə sıx bağlı olan tərəfləri əsas yer tutursa, insanlar və şəxsiyyətlərarası münasibətlərdə yüкsəк əxlaqi кeyfiyyətlər, dəyərlər, ümumbəşəri davranış normaları, mədəni etalonlar və standartlar aparıcı rol oynayır. Mənəviliк insanın atributiv кeyfiyyəti, həyatının əsl dəyərini ifadə etməкlə yanaşı, həm də onun ictimai və şəxsi miqyasda özünü reallaşdırmasının çox mühüm vasitəsidir. Bu mənada ondan кənarda əsl insanın və cəmiyyətin normal fəaliyyətinin mümкün olduğunu iddia etməк absurddur.

Mənəviliк anlayışının universal və geniş əhatəli məzmuna maliк olması bununla izah edilir кi, cəmiyyətdə insanın əməyi ilə yaradılan bütün məhsullar, əşyalar, predmetlər, sosial münasibətlər, siyasi institutlar, mədəniyyət və incəsənət inciləri özlərinin hər birinin конкret təyinatı və məzmunu ilə yanaşı, həm də ümumi insanlıq mahiyyətini əкs etdirir. Məhz sonuncu səpкi, mənəviliyin cəmiyyətdə oynadığı mühüm rolunun və artmaqda olan dinamizminin təməlində durur. Əlbəttə, deyilənlərdən belə nəticə çıxarmaq düzgün olmazdı кi, insanların fəaliyyətinin yaratdığı bütün məhsullar mənəviliк baxımdan eyni səciyyə daşıyır. Belə yanaşmaq, məsələni bəsitləşdirməк olardı. Əslində maddi iqtisadi nemətlərdə, sosial münasibətlərin istehsalı və təкrar istehsalı sferasında, müxtəlif istimai-siyasi institutların və

fəaliyyətin formalarında mənəvilik, mədəniyyət sferası ilə müqayisədə nisbətən az ifadə olunur və zəif təsir gücünə malik olur. Bundan fərqli olaraq insanlararası münasibətlərdə, mikromühitdə, mədəniyyətin müxtəlif sahələrində mənəvilik daha qabarıq çıxış edir və böyük təsir gücünə malik olur. İnsanın çoxsahəli fəaliyyətinin bütün tərəflərində onun mənəviliyinin təcəssüm etdiyinin vurğulanması mühüm metodoloji əhəmiyyət kəsb edir. Əslində belə yanaşma insanın fəaliyyətinin müxtəlif növlü heyvanların gördüyü işdən prinsipcə fərqli olduğunu aşkar etməyə imkan verir. Məsələnin mahiyyəti bundadır ki, ən mükəmməl heyvan növü olan arıların fəaliyyəti belə, sözün həqiqi mənasında mənəvi ideal olanın təcəssümü demək deyildir, çünki bu fəaliyyətin proqramı, onların anatomik quruluşu və onun hüdüdları ilə müəyyən olunur. İnsanların fəaliyyətində mənəvi ideal tərəfin təcəssümü isə bundan tam fərqlidir, insanın demək olar ki, bütün fəaliyyət formaları onun bədəninə və anatomik göstəricilərinə müncər olunmur. Burada irsən keçən genetik imkanlar, son dərəcə geniş və tükənməz məzmuna malik sosial proqramlar ilə birləşir və zənginləşir. Mənəvilik çoxsəviyyəli, çoxölçülü və mürəkkəb məna yükünə malik olmaqla, insanın mahiyyəti, mövcudluğu və fəaliyyətinin ən dərin qatlarına nüfüz edir, onun təkcə şüur səviyyəsini deyil, həm də hissi emosional və qeyri-şüuri dünyasını əks etdirir. Buna görə də, onu təkcə «şüur» və «şüursuzluq» anlayışları kimi təsəvvür etmək qeyri-qənaətbəxş olub, həqiqi mənasını kasadlaşdırır. Mənəviliyi təhsil və təhsillilik, yüksək bilik səviyyəsi və geniş informasiyaya malik olmaq kimi səciyyələndirmək də yetərli deyildir. Doğrudur, sadalan keyfiyyətlər, mənəviliyin ilkin şərtləri kimi çox mühüm əhəmiyyət kəsb edir. Həqiqi mənəvilik isə daha geniş əhatə dairəsinə malikdir: sözügedən və digər keyfiyyətlərin praktiki reallaşmasını, yəni insanın öz hərəkət və davranışlarında onların yerinə yetirilməsini nəzərdə tutur. Deməli, yüksək şüura, təhsil səviyyəsinə və geniş informasiya bazasına malik olmaq, hələ sözün əsl mənasında götürülən mənəviliyi təmin etmir, onun üçün lazım olan ilkin şərtləri ifadə edir. Mənəviliyin adekvat anlamı, onu insanın real və çoxtərəfli yaradıcılığı prosesinin özünəməxsus səpkisi, xüsusi en kəsiyi kimi götürür. Həm də nəzərdə tutulmalıdır ki, mənəviliyin yuxarıda göstərilən tərkib hissələri və tərəfləri əlahiddə və təcrid olunmuş halda deyil, qarşılıqlı təsirdə və vəhdətdə çıxış edərək, ona sistemlilik verir, bütövlük effekti yaradır. Mənəviliyin yaradıcı aktiv istiqamətliliyi son dərəcə geniş olub, insanın həyat fəaliyyətinin bütün sahələrində və tərəflərində aşkara çıxır. Cəmiyyətdə insanların əməyi ilə yaradılan bütün məhsullar və nemətlər çoxluğu (əmək vasitələri, ərzaq, geyim, mənzil, sosial və məişət infrastrukturu, böyük insan birlikləri və sosial qruplar və təbəqələr arasındakı münasibətlər, hər bir fərdin mikrososial əhatə dairəsi, idarəçiliyin və informasiya əlaqələrini real tətbiq edilən və arzu olunan formaları, habelə xalqlar və dövlətlər arasında münasibətlər və sair) özündə çox mühüm və spesifik mənəvi səpkini ifadə edir. Bu mənada aşağıdakı fikir məntiqi və faktıki baxımdan haqlı görünür: bütöv bir tam kimi, vahid sosial orqanizm kimi götürülən cəmiyyətin ictimai həyat formalarının səmərəli təşkili və inkişafı mənəvilikdən kənarda qeyri-mümkündür. Məhz bu anlayış, vasitəsilə hər bir fərd özünün həyatını və fəaliyyətini, ümumilikdə sosiumun müvafiq göstəriciləri ilə müqayisə edir və identikləşdirir. Mənəvilik anlayışında insanın daxili subyektiv aləmi özünün bütün hərtərəfliliyi zənginliyi və dolğunluğu ilə

təzahür edir. Bundan əlavə ictimai fəaliyyətin müxtəlif sahələrində insanların bir-birinə münasibətlərinin xarakteri və məzmununun açılmasında da bu anlayış, misilsiz rol oynayır. Sonra, ayrıca götürülmüş fərd ilə ümumilikdə cəmiyyət arasında münasibətlər yaradılması, maraqların qarşılıqlı sürətdə əlaqələndirilməsi və uzlaşdırılması proseslərinin dərinlikləri və incəliklərinin aşkara çıxarılmasında sözügedən anlayış fundamental əhəmiyyətə malikdir. Mənəviliyin təzahürünün çox mühüm istiqaməti fərd tərəfindən sosial həyatda mövcud olan elmi biliklərin, davranış standartlarının, əxlaq normalarının, mədəni etalonların və dəyərlər sisteminin, bütövlükdə sözün geniş mənasında götürülən sosial təcrübənin mənimsənilməsində özünü göstərir. Yuxarıda qeyd olunan tərəflərin hər biri və bütövlükdə hamısı mənəvilik anlayışının sosial-fəlsəfi statusunu və məna yükünü müəyyənləşdirməkdə müstəsna əhəmiyyətə malikdir. Bununla yanaşı sözügedən məsələ ilə bağlı mənəvilik anlayışının aşağıdakı cəhəti xüsusi qeyd olunmalıdır: mənəvilik həm də insanın öz daxili aləminə yönələn refleksiyası kimi çıxış edir. Başqa sözlə deyilsə, o subyekti özünüdərketmənin obyektinə çevirir. Nəticədə insanın varlığının daxili, tükənməyən incəliklərinə və dərin qatlarına nüfüz etmək, burada gizlənən sehrli qüvvələri və sirləri açmaq mümkün olur. Buradan aydın olur ki, cəmiyyətdə mənəviliyin rolu və təsir dairəsi praktiki olaraq sonsuz və hududsuzdur. İnsanın ictimai varlığı və digər insanlarla münasibətləri ilə yanaşı onun «hökmranlığının» çox mühüm obyektini insanın daxili dünyası, subyektiv aləmi təşkil edir. Mənəviliyin sözügedən sahədə təsir gücü xüsusilə böyük və mühümdür. Çünki bu mahiyyətinə görə insanın özünə sahibliyi, hərəkət və davranışlarını idarə etməsi deməkdir. Bu vəzifələri həyata keçirərkən, mənəvilik aşağıdakı sosial-psixoloji fenomenlər ilə vəhdətdə və sıx qarşılıqlı təsirdə çıxış edir (şəxsiyyətin ləyaqəti və özünəhörməti, özünü düzgün qiymətləndirmə, özünənəzarət, özünütərbiyə, həqiqətə, yüksək əxlaqi keyfiyyətlərə və dəyərlərə can atma, dərin əqidəlilik, özünütəkmilləşdirmə və s.).

Deyilənlər sübut edir ki, mənəvilik son dərəcə mürəkkəb məzmuna malik olmaqla, özündə sonsuz saylı mühüm tərəfləri, səpkiləri və ölçüləri birləşdirir. Bu baxımdan insanın mənəvilik keyfiyyətini obrazlı sürətdə hüdudsuz mikrokainat adlandırmaq olar. Mənəvilik anlayışının sosial fəlsəfi məzmununu əks etdirən müxtəlif tərəflər burada sadəcə iştirak etməklə məhdudlaşmayaraq, onun qayəsini və əsaslarını müəy-yənləşdirir. Qeyd edilən məqam fəlsəfi ədəbiyyatda mənəviliyin mahiyyəti barədə söylənilən aşağıdakı fikrə haqq qazandırır:

«Mənəvilik şəxsiyyət tərəfindən xarici varlıq universumunun etik əsaslar üzərində yüksələn daxili kainata çevirmək qabiliyyəti, elə bir daxili dünya yaratmaq bacarığıdır ki, onun sayəsində insan daim dəyişilməkdə olan şəraitdə öz eyniyyətini və azadlığını reallaşdırır. Mənəvilik nəticə etibarilə müəyyən mənada özünəməxsus fikir kosmogoniyasına dünya obrazının şəxsiyyətin əxlaq qanunu ilə birləşməsinə gətirib çıxarır» (5, 213). İnsanın bütövlükdə əmək fəaliyyəti və onun konkret istiqamətləri şüurdan və məqsəddən ayrılmaz olduğu üçün, öz mahiyyəti etibarilə onun mənəviliyinin çoxsahəli təcəssümü kimi çıxış edir. Mənəviliyin bu xarakteri onun ideal ilə sıx əlaqəliliyini göstərir. Döğrudur, ideallıq təkcə şüur, bilik, və məqsəddən ibarət deyildir, onun tərkibində yuxarıda qeyd olunduğu kimi, əxlaqı təsəvvürlər və normalar, estetik hisslər, zəngin emosiyalar mühüm yer tutur. Lakin bu fakt mənəvilikdə idealın yüksək yer tutduğunu və

mühüm rol oynadığını istisna etmir. Əslində insanın çoxtərəfli mənəvi həyatına daxil olan bütün tərəflər – rasional biliklər, emosiyalar, hisslər, zəka, iradə, mənlikşüuru, motivlər, dəyərlər, ustanovkalar, yaddaş və s., daha çox ideal obrazlar kimi çıxış edir. Mənəviliyin formalaşması və inkişafı da dil, şüur, təfəkkür, anlayışlar aparatı kimi ideal formalardan ayrılmazdır. Qeyd etmək lazımdır ki, öz mahiyyətinə görə ideallıq real həyat ilə sıx əlaqəlidir, bu məqamı vurğulayaraq Hegel yazırdı:

«Ruhun, xüsusilə də mənəviliyin anlayışında ideallıq çox vacibdir. Sonuncu, reallığı inkar etsə də özündə onu virtual halda saxlayır» (3, 102). İdeallıq, insanın mənəviliyinin ümumi amalı, rolun və funksiyalarının yerinə yetirilməsində müstəsna əhəmiyyətə malikdir. Belə ki, məhz həmin səviyyədə insan xarici aləmin təsirlərindən, müxtəlif növlü ictimai normaların tələblərindən azad sürətdə, necə deyərlər, suveren şəkildə çıxış edir. Nəticədə bu səviyyədə insanın öz daxili «Mən»inin ən dərin qatlarında mövcud olan yaradıcı potensialı üzə çıxarmaq və reallaşdırmaq üçün geniş imkanlar yaranır. Qeyd olunan vəziyyət həm də buna görə mümkün olur ki, insan dünyada baş verən hadisələri və prosesləri ideal səviyyədə mənalandırarkən, onları real gerçəklikdə olan xassə və əlamətlərdən, təsadüflərdən, məkan-zaman göstəricilərindən təmizlənmiş formada, öz peredmetliyindən kənarda götürür. Belə yanaşmanın üstünlüyü ondadır ki, insan özünün praktiki fəaliyyətinin müxtəlif tərəflərində, reallığın dərin qatlarında gizlənən mahiyyət əlaqələrini aşkara çıxarmaqda idealın köməyinə arxalanır. Nəticədə mənəviliyin ideal vasitəsilə yeni biliklər əldə etməsi, insanın öz varlığının həqiqiliyini dərindən anlaması və ona müvafiq fəaliyyət göstərərək, özünü daha dolğun reallaşdırması mümkün olur. Sözügedən məqamı yüksək qiymətləndirən S.Frank yazırdı:

«Yenilik ünsurləri, gələcəyə istiqamətlənmiş yaradıcı cəhdlər, fəaliyyətin ruhi dərinliyindədir, bu sehrli dərinliyin mərkəzində hər bir yenilik sanki birdən-birə və heç nədən yaranır» (6, 126). Mənəviliyin sosial-fəlsəfi məzmununu açarkən fikrimizcə aşağıdakı məqama da diqqət yetirilməlidir. Bütövlükdə cəmiyyətin və ayrıca bir fərdin mənəvilik göstəriciləri konkret tarixi xarakter daşıyır. Bu o deməkdir ki, onun inkişaf səviyyəsi eyni deyildir və özündə müxtəlif imkanlar spektrini əhatə edir. Başqa sözlə, mənəvilik ayrıca bir fərdə, sosial birlik formasında, millətdə və müxtəlif nəsillərdə müəyyən seçimlə reallaşır. Həmin prosesdə yuxarıdakı sosial subyekt növlərinin hər biri, mənəviliyin bu və ya digər tərəfinə üstünlük verə, başqalarını isə arxa plana keçirə bilir. Sözügedən seçimin nə dərəcədə düzgün və adekvat olması, məsələnin başqa tərəfidir. Burada bizi maraqlandıran əsas məqam, mənəviliyin müəyyən hallarda və situasiyalarda seçimlə təzahür etmə xassəsinə malik olduğunu vurğulamaqdır.

Milli müstəqillik dövründə qərarlaşan prinsipcə yeni sosial reallıq, ictimai həyatın bütün sferalarında baş verən əsaslı dəyişikliklər və transformasiya prosesləri, müasir cəmiyyətin hər bir üzvünün mənəvi inkişafı, öz mənəvilik potensialını reallaşdırması üçün real şərait və geniş imkanlar yaradır. Bu mənada müasir Azərbaycan cəmiyyətində gedən iqtisadi islahatlar, elmi-texniki tərəqqi, bazar iqtisadiyyatınını formalaşması, sosial həyatdakı dəyişikliklər (sosial strukturda diferensiasiya və inteqrasiya meyilləri, sosial inkişafın ağırlıq gücünün sinfi səpkidən milli münasibətlərə və mikrososial birliklərə keçməsi, çoxtərəfli və ardıcıl demokratikləşmə prosesləri, siyasi həyatda sözün

əsl mənasında götürülən plüralizmin bərqərar olması və s.) çox böyük önəm kəsb edir. Bununla əlaqədar qeyd edək ki, sosial gerçəkliyin mütərəqqi istiqamətdə dəyişilməsinin avtomatik sürətdə insanın mənəvi inkişafına, mənəviliyinin reallaşmasına gətirib çıxartdığını düşünmək sadəlövhlük olardı. Əslində mənəviliyin tərəqqisi və real həyatda təzahürü asan və rəvan getmir, bir sıra çətinliklər ilə müşayiət olunan uzunmuddətli proses kimi çıxış edir. Cəmiyyətimizin yaşadığı müasir keçid dövründə ictimai həyatın son dərəcə mürəkkəbliyi, rəngarəngliyi və dinamizmi insanın özünümüəyyənləşdirməsi, özünüreallaşdırması və özünütəsdiq etməsi ilə bağlı bir çox problemlər meydana çıxır. İnsanın öz mənəviliyini daha dolğun və hərtərəfli reallaşdırmasında, ümumi yetkinliyinin yüksəlişində sözügedən problemlərin həlli mühüm əhəmiyyətə malikdir. Fəlsəfi ədəbiyyatda haqlı olaraq qeyd edilir ki, hazırda insan gərgin mənəvi- psixoloji motivləşmə dünyasında yaşayır. O, öz hərəkətlərini və əməllərini ümumi ideal ilə, absolyut ilə münasibətdə götürür. Şəxsiyyətin unikallığı və suverenliyi məhz bu dəyərlərə üstünlük verilməsində aşkara çıxır (4, 348).

Cəmiyyətdə mənəviliyin inkişafı meylinin xeyli dərəcədə ziddiyyətli və çətin olduğunu, həm də bundan görmək olar ki, müasir ictimai həyatın çoxistiqamətliliyi və zənginliyi, bəzən təkcə sözün həqiqi mənasında götürülən mənəviliyi deyil, həm də antimənəviliyi, mənəvilik keyfiyyəti ilə bir araya sığmayan hadisələri törədir. Doğrudur, sonuncular aparıcı yer tutmur, lakin bu gunkü sosial həyatda onların kifayət qədər olduğu danılmaz faktdır. Bunun səbəbləri sırasında ictimai həyatın müxtəlif sahələrində hələ də özünü göstərən deformasiya halları, insanların dünyagörüşü və ümumi inkişaf səviyyəsində müxtəliflik, mənəvi tələbatların rəngarənliyi, xaric ilə intensiv əlaqələr və informasiya mübadiləsinin törətdiyi mənfi nəticələr xüsusi yer tutur. Buna görə də, mənəviliyin tərəqqisi səviyyəsi, ictimai həyatın hər bir sferasında inkişafın mənəviyə təsiri baxımdan doğurduğu nöqsanların, uyğunsuzluqların və deformasiyaların aradan qaldırılması ilə həmahəng sürətdə əldə olunur. Sözügedən mənfi istiqamətli təsir müxtəlif sahələrdə birmənalı və eynisəviyyəli deyildir. Məsələn, iqtisadiyyatda bazar qanunlarınını yaratdığı maksimum qazanc əldə etmək, yüksək fayda götürmək hərisliyi, insanların mənəvi həyatında və dəyərlər oriyentasiyasında hallallıq, ədalət, məsuliyyət, şərəf, ləyaqət, başqasının halına acımaq kimi yüksək mənəvi dəyərlərin arxa plana keçməsi ilə müşayiət olunur. Bununla belə iqtisadi inkişafın mənəviliyə mənfi təsiri öz xarakterinə görə bilavasitə və birbaşa deyil, dolayısı ilə olur. Eyni fikri sosial və siyasi həyatda baş verən irəliləyişlərin mənəvilik baxımdan törətdiyi bəzi neqativ nəticələr (sosial qütbləşmə, işsizlik, yoxsulluq, mənfi xarakterli marginal qrupların mövcudluğu, siyasi, poseslərdə iştirak imkanlarının müxtəlifliyi və s.) haqqında da irəli sürmək olar. Lakin həmin sahələrdən fərqli olapraq cəmiyyətin mənəvi həyatında, insanların şüurunda, mədəniyyətində özünü göstərən deformasiyalar, mənfi meyillər mənəviliyə daha çox pozucu təsir göstərə bilir. Hazırda ölkəmizdə elmin, təhsilin və mədəniyyətin düzgün təşkili və effektiv inkişaf etdirilməsinə yönəlmiş islahatlar bu baxımdan çox böyük mütərəqqi əhəmiyyətə malikdir. Onlar Azərbaycanda elmin və təhsilin qabaqcıl ölkələrin səviyyəsinə çatdırılması, xalqımızın tarixi keçmişinə, mədəni milli sərvətlərinə, hörmətlə yanaşılması, dilimizin və mədəniyyətimizin inkişafına hərtərəfli qayğı göstərilməsi, cəmiyyətimizin hər bir üzvünün milli mənlikşüurunun düzgün

formalaşdırılması məqsədinə yönəlir. Həmin istiqamətlərin hər birində qazanılan uğurlar sosial-mədəni sferada özünü göstərən qüsurların aradan qaldırılması, insanların mənəvi inкişafını, onların öz mənəviliк кeyfiyyətlərinin hərtərəfli reallaşdırılmasını təmin edir.

Deyilənlərdən məlum olur кi, zəкalı insan növünün (Homos sapiens) yaranması tarixi qədər qədim olan mənəviliк anlayışı əsrlər кeçdiкcə cilalanmış və zənginləşərəк özünə daim yeni-yeni cəhətlər hopdurmuş, nəticədə bəşəriyyətin inкişafının qazanmış olduğu nailiyyətlərin umumiləşdirici yeкunu, əsas məğzini, foкuslaşdırılmış nəticəsini ifadə edən anlayış səviyyəsinə yüкsəlmişdir. Onun çoxtərəfli məzmununda elmi biliкlər, təhsil, şüurluluq, əxlaqı davranış normaları, mədəniyyət, dəyərlər oriyentasiyası ilə yanaşı insanın tüкənməz və zəngin yaradıcılığının qeyri-şüuri, emosional-hissi səpкiləri bitкin və bütöv bir tam кimi fəaliyyət göstərir. Həm də unudulmamalıdır кi, qeyd olunanlar yalnız fəaliyyət və ünsiyyət prosesində reallaşdırıldıqda mənəviliyin həqiqi adeкvat anlamını ifadə edir. Mənəviliк, insanın sosial mahiyyətinin müəyyənedici əsası, onun çoxtərəfli aкtivliyinin və yaradıcı fəaliyyətinin böyüк təкanverici qüvvəsi və tüкənməz impulsu rolunu oynayır. Onun real həyatda artmaqda olan rolu və daim genişlənən təsir dairəsi sübut edir кi, bu anlayışı кompleкs meyarlara və göstəricilərə əsaslanmaqla mənalandırmaq olar. Qeyd olunan vəzifənin uğurlu həlli, həmin istiqamətdə sosial-fəlsəfi tədqiqatların gələcəкdə də davam etdirilməsinə elmi və praкtiк tələbat yaradır.

## ƏDƏBİYYAT


1. Барулин В.С. Социальная философия. М.: Фаир-Пресс, 2002, 560 с.
2. Бердяев Н.А. О назначении человека. М.: Республика, 1993, 628 с.
3. Гегель Г. Энциклопедия философских наук. Т.3. М.: Мысль, 1977, 511 с.
4. Гуревич П.С. Философская антропология М.: Noto-Bene, 2001, 553 с.
5. Крымский С.Б. Контуры духовности. Новые контексты индивидуальности // Вопросы философии, 1992, № 12 с. 210-219.
6. Франк С. Духовные основы общества М.: Республика, 1992, 454 с.


## СОЦИАЛЬНО-ФИЛОСОФСКАЯ СУЩНОСТЬ ПОНЯТИЯ ДУХОВНОСТИ


**З.Дж. ГАДЖИЕВ**


### РЕЗЮМЕ


Статья посвящена анализу одной из актуальных, одновременно недостаточно разработанных проблем социальной философии – раскрытию сущности и содержания понятия духовности. В ней подчеркивается, что среди многообразных проявлений социальной сущности человека, духовность занимает центральное место. Автор детально анализирует проявление духовности в отношениях индивида и общества, во взаимосвязях различных форм социальных общностей, в социализации личности. Особое внимание уделяется раскрытию роли духовности во внутреннем мире человека, развитии самосознания и самоидентификации личности.

В статье отмечается, что с приобретением национальной независимости открывается качественно новый этап в возрастании роли и влияния духовности в жизни общества. В этой связи раскрывается огромное значение трансформационных процессов, осуществляющихся в современном обществе.

**SOCIAL-PHILOSOPHICAL ESSENCE OF THE NOTION OF SPIRITUALITY**

**Z.J.HAJIYEV**

**SUMMARY**

The article deals with one of the most actual but poorly investigated problems of social philosophy – the discovery of the essence of the notion "spirituality".

According to the author's viewpoint, spirituality is the main point among the multiform manifestations of a person's social essence. The author thoroughly analyzes the manifestation of spirituality in the relations of an individual and the society, in the interrelations of different forms of social communities, in a person's socialization.

The article specifically studies the discovery of the role of spirituality in the inward man and the development of a person's self-consciousness and self – identification.

It's also stated, that the gain of national independence opens a new stage to increase the role and the influence of spirituality in the life of the society, and this, in its turn, reveals the importance of transformational processes coming true in modern society.